UOT 746

**Münəvvər Əzizəli qızı Hacıyeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Dosent**
**E-mail: minavvarhajiyeva@yahoo.com**

# XALQ USTALARININ XALÇALARDA YARATDIQLARI YENİ KOMPOZİSİYALAR

**Xülasə:** Bildiyimiz kimi, XX əsrin ortalarından başlayaraq Azərbaycanda xalçaçılıq sənəti iki istiqamətdə inkişaf etməyə başlamışdır: xalq ustaları tərəfindən yaranan xalçalar və peşəkar rəssamlar tərəfindən yaradılan xalça əsərləri. Bu məqalədə xalq ustalarının yaratdıqları iki xalça nümunəsi haqqında danışılıb. Belə ki, Qarabağ və Quba xalçaçılıq məktəblərinə aid olan "qızılgül" və "həyat ağacı" adlanan xalçalarda tətbiq edilən elementlərin mənaları açıqlanmışdır. Xalçaçının sadə təxəyyülü əsasında yaradılan bu elementlər təhlil edilmişdir. "Qızıl gül" xalçasında əsas element kimi təsvir edilən "quş", "həyat ağacı" xalçasında "ağac", "qoç" və "tovuz quşu" obrazlarının semantik mənaları və onların xalçada tutduqları mövqelər araşdırılmışdır.
**Açar sözlər:** Ornament, kompozisiya, xalça, toxucu, obraz, sənət, forma, ritm, ağac, quş, fantaziya

Ornament sənəti praktiki tətbiq olunan ən qədim sənət növlərindən biridir. Ornamentin yarandığı ilk dövrlərdən başlayaraq, o, tətbiq olunduğu əşyadan ayrılmaz olub, müəllifin daxili aləmini, kainatı, onu əhatə edən mühiti, hətta ölüm və həyat haqqında düşüncələrini əks etdirib. Ornament xalça sənətinin mahiyyətini açıb göstərən ayrı-ayrı işarələrdən ibarətdir. Bu işarələr isə kompozisiyada müxtəlif tarixi dövrlərin siyasi, fəlsəfi, dini görüşlərini özündə əks etdirir. Bu baxımdan xalçalar üzərində təsvir olunan naxış və süjetlər təkcə estetik baxımdan əhəmiyyət kəsb etmir, eyni zamanda, mütəxəssislər xalça naxışlarının qədim piktoqrafiya və ideoqrafiya nümunələri kimi, qiymətli mənbə olduğunu və qədim insanların dünyagörüşü barədə informasiya daşıyıcıları olduğunu qeyd edirlər.

Uzaq keçmişdən bu günədək Azərbaycan dekorativ-tətbiqi sənətində təsvir olunan və xalqın həyat tərzi və məişətində xüsusi rol oynayan bu ornament motivləri əvvəllər rəmzi məna kəsb etsələr də, hazırda sırf bəzək xarakteri daşıyırlar. Belə hesab edilir ki, hər bir naxış müəyyən bir sözü, bəzən hətta söz birləşməsini ifadə edir və demək olar ki, bu naxışlar, əslində, artıq mənaları unudulmuş təsvirli yazılardır.

İlkin inkişaf mərhələsində sadə, bəsit formada yaranan naxış və kompozisiyaların elementləri bədii təfəkkürün inkişafı prosesində tədricən təkmilləşir və istedadlı xalq sənətkarlarının novatorluğu, fərdi ustalıqları sayəsində incəsənətin müstəqil sahəsinə çevrilirlər. Hər bir bölgədə xalçaçının özünəməxsus dünyagörüşü, ornament salma və bədii işləmə üslubları vardır. Lakin onların ümumi üslub baxışları da zaman-zaman təkmilləşməkdədir. Azərbaycanın xalq ustaları tərəfindən icra olunan xalçaların dəyəri onların kompozisiya quruluşunun müxtəlifliyi, dekorativ-ornamental bəzəklərinin motiv zənginliyindədir.

Bütün təsviri sənət əsərlərində olduğu kimi, dekorativ-tətbiqi sənət əsərləri də xalqın həyatını, onun adət-ənənələrini özündə əks etdirərək yeni motivlər və kompozisiyalar yaratmışdır. Təsadüfi deyildir ki, Azərbaycan xalq sənətində işlədilən bütün bəzək elementləri real mühitdən alınmış təsvirlərdən – insan, heyvan, quş, bitki və məişət təsvirlərindən ibarətdir.

Qeyd edək ki, ənənəvi və tanınan naxışlarla bərabər, xalçaçılıqda qeyri-ənənəvi formaya və məzmuna malik naxışlara da rast gəlinir. Bu naxışlar davamlı ənənəni davam etdirmədiklərinə görə onların semantikasını müəyyənləşdirmək çətinləşir. Belə naxışların meydana gəlməsi bir sıra səbəblərlə izah olunur: toxucunun təkrar etdiyi naxışı düzgün başa düşməməsi və yaxud onu adekvat şəkildə təkrar edə bilməməsi; ayrı-ayrı sənətkarların xalçanın naxış sisteminə tətbiq etdiyi yeni və orijinal naxış yaradıcılığı; belə naxışların yaranması yerli ənənənin mariginal inkişafını əks etdirir. Belə qeyri-ənənəvi naxışlara Azərbaycan xalçaçılığının əksər mərkəzlərində və məntəqələrində rast gəlmək mümkündür.

Qarabağın süjetli kompozisiyası adı ilə tanınan bir sıra xalçalarına nəzər salsaq, onların üzərində yer alan, dekorativ motiv kimi çixiş edən heyvan, məişət əşyalarının təsvirləri toxucuların və ya sənətkarların yeni naxış elementləri yaratmaq istəyindən yaxud gördükləri təsvirləri xalçalarda əks etdirmək istəyindən yaranmışdır. Məhz bu xalçalar da qeyri-ənənəvi motivlər əsasında toxunulmuşlar.

Məlum olduğu kimi, Qarabağ toxucuları xalça çeşnilərinin toxunmasında, ornamental bəzək xüsusiyyətlərinin seçilməsində, qoşa çeşni elementlərinin simmetrik yerləşdirilməsində, göllərin salınmasında və s. misilsiz zövqə malik olub, bənzərsiz dekorativ-tətbiqi sənət əsərləri səviyyəsində xalça məmulatları istehsal edirdilər. Qarabağlı xalçaçılar əllərinə düşən əksər şəkil və təsvirlərə biganə qalmır, onlara ilmələrlə yeni həyat bəxş edirdilər. Qarabağ xalçalarının texniki xüsusiyyətlərinə gəlincə qeyd etmək lazımdır ki, al-əlvan və şux rənglər, nəbati və zoomorf təsvirlər, süjet üslubu bölgə toxuculuq sənətinin səciyyəvi xüsusiyyətlərindəndir.

Qarabağın belə xalçalarından biri, XX əsrə aid olan “qızılgül” xalçasını təhlil edərkən onun sadə bir motiv əsasında toxunduğunun şahidi oluruq (Şəkil 1).



**Şəkil 1. “Qızılgül”. Qarabağ. XX əsrin sonu.**

Ümumiyyətlə, Qarabağ xalçaları üçün xarakterik olan qara fonda “qızılgül” çiçəklərinin verilməsi burada da özünü göstərir. “Bağçada güllər” kompozisiyasından bizə məlum olan müxtəlif rəngli qızılgüllər bu xalçada həm haşiyə zolağında, həm də ara sahədə verilmişdir. Lakin qeyd etmək lazımdır ki, toxucu yaratdığı bu kiçik “sənət əsəri”ndə təkcə qızılgüllərin təsviri ilə kifayətlənməmiş, o yeni motivli kompozisiya yaratmaq məqsədilə ara sahədə güllərin üzərində oturmuş quş təsvirlərini də əlavə etmişdir. Toxucu heç bir stilizə etmədən quşları təbiətdə gördüyü kimi xalçaya köçürərək, eyni zamanda bunun mənasını da verməyə çalışmışdır. Diqqətlə fikir versək görərik ki, o, quşların hər birinin dimdiyinin qarşısında gülün bir qönçəsini göstərmişdir. Bu da təsadüfi deyil, yəqin bununla o, öz fikrində təsəvvür etdiyi bir mənzərəni, yəni quşların güllərin üzərində gülün gözəl qoxusuna görə oturduqlarını canlandırmışdır. Bir sözlə, xalçaçı, bəlkə də, hər gün rastlaşdığı bir reallığı öz fantaziyasına görə təbii rənglərlə xalçasında əks etdirmişdir. O, təkcə xalçanın ara sahəsini deyil, onun haşiyə zolağını da sxemli şəkildə verməyə çalışmışdır. Burada da təsvir etdiyi al-əlvan qızılgülləri düşünülmüş formada yerləşdirməklə, maraqlı ritm yarada bilmişdir. Əgər bu düzülüşün konstruktiv sxemini nəzərə alsaq, onun “meandr” elementinin quruluşu ilə üst-üstə düşdüyünü görərik. Bu isə toxucunun kifayət qədər təcrübəli olduğunun əyani göstəricisidir.

Ümumiyyətlə, dekorativ-tətbiqi sənətdə quş obrazlarının təsviri geniş yayılmışdır. Bu da məhz quşun bir sıra semantik mənalar daşıması ilə əlaqədardır. Bu cür obrazlara humay, tovuz quşu, göyərçin, bülbül, qartal, ördək, xoruz və s. quşlar daxildir. Xalçalarda geniş tətbiq olunan bu obrazların müxtəlif işlənmə üslubları mövcuddur. Xalçaların üzərindəki quş təsvirlərinə diqqət yetirdikdə biz onların hətta eyni xalça məktəbində də müxtəlif təsvir formalarına rast gəlirik. Qeyd etdiyimiz kimi, tarixin qədim dövrlərindən bu günədək sənət abidələrinin, xalçaların üzərində rast gəlinən quş motivlərinin müxtəlif semantik mənaları var: Şərq aləmində quş insanın ruhu mənasını ifadə edir. Hər bir insanın quş şəklində bir qoruyucu ruhu olduğu, ölən insanın ruhunun göyə yüksəlib quş kimi uçması, biri öləndə “quş kimi

uçdu getdi" tipli ifadələr hələ də xalq arasında mövcuddur. Qədim türklərin minilliklər öncə yaranıb inkişaf edən inamlarında quş təsvirləri böyük simvolik əhəmiyyət daşımış, semantik mənada güc – qüdrəti ifadə etmişdir. Bundan başqa, quş həm də ölməzlik simvolu kimi qəbul edilmişdir.

Təhlil etdiyimiz "qızılgül" xalçası kompozisiya quruluşuna görə çox bəsit olsa da, məzmun cəhətdən doğrudan da böyük əhəmiyyət kəsb edir. Çünki, kompozisiyanın əsas elementlərindən olan "quş" obrazları dərin semantik mənalar daşıyır. Toxucunun isə belə bir motivə müraciət etməsi məhz bununla səciyyələnir.

Azərbaycanın xalçaçılıq bölgələrindən biri də Qubadır ki, burada da toxunan xalçalar öz gözəlliyi, rəngarəngliyi və kompozisiya zənginliyi baxımından dünyada şöhrət qazanmışdır. Bölgənin təbiət örtüyü, inanc və etiqadları rənglərin və naxışların dili ilə xalçalarda əks etdirilir. Şər qüvvələrdən qorunmaq, xeyir-bərəkət rəmzli işarələr, "buynuz", "qayçı", tənək yarpaqları, çiçəklər, "sacayağı", dəvə, iki başlı və bir bədənli, başı taclı mifoloji quşlar, "əjdaha" kimi əfsanəvi obrazlar və s. hər bir toxuculuq məntəqəsində müstəqil şəkildə üslub dəyişkənliyi ilə toxunur.

Quba xalçalarında xalq ustalarının fərdi yanaşma tərzi, onun fantaziyası və müraciət etdiyi mövzular özünəməxsusluğu ilə fərqlənir. Belə xalçalardan birinin üzərində dayanmaq istəyirik. Müraciət etdiyimiz "Həyat ağacı" adlı xalça nümunəsi XX əsrin əvvəllərinə aid olub çox maraqlı və zəngin kompozisiyaya malikdir (Şəkil 2).



**Şəkil 2. "Həyat ağacı". Quba. XX əsrin sonu.**

Xalçanın kompozisiyası müəllifin tətbiq etdiyi yeni motiv və elementləri özündə əks etdirir. Qeyri-adi kompozisiya quruluşu ilk baxışdan diqqəti cəlb edir. Belə ki, xalçanın kompozisiyası müxtəlif heyvan təsvirləri ilə işlənmiş böyük haşiyə zolaqlarından və çox kiçik ara sahədən ibarətdir. Xalçanın tam mərkəzində, yəni ara sahənin ağ yerliyində stilizə edilmiş dörd "həyat ağacı" təsvirinin birləşməsindən əmələ gələn rombşəkilli "göl" yerləşir. Kompozisiyaya uyğun olaraq, gölün yarı hissələri ara sahənin aşağı və yuxarı tərəflərində yerləşdirilmişdir. Gölün ətrafında

qara və açıq-qırmızı rəngli haşiyələr stilizə edilmiş ön və yan görünüşlü qoç və tovuzquşu təsvirlərilə doldurulmuşdur. Bu elementlər özünəməxsus şəkildə verilərək xalçada yeni quruluşlu kompozisiyanın yaranmasına səbəb olmuşdur. Xalçanın yuxarı hissəsində təsvir edilən ay-ulduz rəsmi kompozisiyanın yeganə fərqləndirici elementidir. Toxucu burada qədim albanların aya və günəşə sitayiş etdiklərini göstərməklə yanaşı, eyni zamanda xalçanın toxunduğu məntəqənin (Xınalıq) adının yazılı təsvirini vermək üçün də məhz bu elementi seçmişdir. Bu elementin aşağı hissəsinin sağ və sol tərəflərində ovçuluq səhnələrinin simvolu sayılan ox və yay təsvirlərini görürük ki, bu da xalçanın "ovçuluq" kompozisiyası əsasında işləndiyini bir daha sübut edir. Bildiyimiz kimi, ox və kaman Mezolit dövründə, yəni eramızdan əvvəl X-XII minilliklərdə artıq meydana gəlmişdi. Qayaüstü rəsmlərdə təsvir edilən ov səhnələri də bunu deməyə əsas verir.

Xalçanın ümumi təhlilindən belə bir nəticəyə gələ bilərik ki, müəllif xalçada əsas element kimi ağac, qoç və tovuz quşu elementlərini təsvir etmişdir. Bu da təbiidir, çünki hər üç element dərin semantik məna daşıyır. Türk xalqlarının təsviri sənətində ən çox rast gəlinən motivlərdən biri – həyat ağacı türk mədəniyyətinin mühüm elementidir və Azərbaycan xalçalarında da diqqətəlayiq yer tutur. Bir çox xalqların inanclarında həyat və tale ağacları kifayət qədər oxşarlığa malikdir – zirvəsində quşlar, ətəyində isə su hovuzu. Ümumiyyətlə, hovuz və ya digər bir su hovuzunun olması istənilən ornamentdə həyat ağacını bitki naxışlarının adi detallarından fərqləndirməyə imkan verən mütləq dəqiqliyə malik əlamətdir. Quş isə türkdilli xalqların inancına görə, ölənlərin ruhudur və bu səbəbdən də ağacın zirvəsində ("səma" aləmində) təsvir edilir.

Azərbaycan xalçalarında tez-tez rast gəldiyimiz "ağaclı" kompozisiyasında əsas element olan ağacların təsviri bir qayda olaraq, geniş sahədə özü də kompozisiyanın mərkəzində verilir. Qeyd edək ki, Şimali Azərbaycana məxsus olan xalçalarda "ağac" elementi çox vaxt stilizə edilmiş və həndəsi formada təsvir edilir ki, sözügedən xalça nümunəsində də biz bunun şahidi oluruq. Eyni zamanda ənənəvi "ağaclı" kompozisiyasından fərqli olaraq, burada bir yox, bir neçə ağac təsvir edilmişdir. Bu da artıq yeni sxematik quruluşlu kompozisiyanın yaranmasına gətirib çıxarır.

Heyvan və quş obrazlarına gəldikdə isə, sənətşünaslıq üzrə elmlər doktoru, professor Röya Tağıyevaya istinad edərək qeyd edə bilərik ki, heyvan və quş, Avesta süjetləri Zərdüştlüyün islam dini ilə əvəz olunduğu vaxtlarda qadağalara baxmayaraq bu günədək Azərbaycan xalçalarında qalmaqdadır.

Azərbaycan incəsənətində ən geniş yayılmış tovuz quşu, göyərçin, bülbül və qartal obrazları olub. Bülbüldən sonra sənət nümunələri üzərində, o cümlədən xalçalarımızda tez-tez təsadüf edilən tovuz quşudur. Bu obraz xalçalarda əsasən, mərkəz-

də təcrid olunmuş halda, rəngarəng qanadlarını açmış vəziyyətdə, ya müqəddəs kol, ağac ətrafında üz-üzə qoşa dayanmış halda, yaxud bütün ara sahədə şahmat üsulunda səpələnmiş tərzdə, eyni zamanda haşiyə zolağında raport şəklində təsvir olunurdu. Hazırkı xalça nümunəsində biz bu obrazı haşiyə zolağının əsas bəzək elementi kimi görürük.

Xalçanın əsas elementlərindən biri də "qoç" obrazıdır. Sənətşünaslıq üzrə elmlər doktoru, mərhum akademik Rasim Əfəndiyə istinad edərək, qeyd edə bilərik ki, sənət abidələrimiz içərisində, xüsusilə də xalçalarımızda ən çox təsadüf edilən qoç təsviri olmuşdur.

Mənbələr göstərir ki, qoç türkdilli xalqlar arasında müqəddəs heyvanlardan biri sayılmışdır. Bu günədək kəndlərdə çəpər dirəklərinə, eyvan sütunlarına bərəkət və qüvvət əlaməti olaraq, qoç başının bərkidilməsi, qoçun şərəfinə daşdan yonulmuş heykəllər yaradılması, xalçalarımızdakı qoç buynuzlarının bəzək elementi kimi təsviri bunun canlı sübutudur: "Buynuz", "Pirəbədil" və s.

Beləliklə, toxucu həyatda gördüyü və bəlkə də sitayiş etdiyi obrazları xalçada canlandırmaqla "ovçuluq" kompozisiyası əsasında özünün yeni bir əsərini yaratmağa müyəssər olub.

Araşdırdığımız hər iki xalça nümunəsinin təhlili bizə onu deməyə əsas verir ki, hər bir sadə toxucunun öz bəsit təxəyyülü əsasında yaratdığı xalça yeni bir əsərdir. Azərbaycan xalçası əsrlər boyu dünyada milli mədəniyyətimizin və incəsənətimizin, ulu keçmişimizin, tariximizin təmsilçisi olmuşdur. İnsanların məişət tələbatlarını ödəyən xalçalar zaman-zaman sənət nümunəsi, əntiq əşyalar kimi muzeylərdə, şəxsi kolleksiyalarda qorunmuş, böyük ekspozisiyaların bəzəyinə çevrilmişdir.

## Ədəbiyyat siyahısı:


1.Əfəndi R., Əfəndi T. Azərbaycan bəzək sənəti. Bakı, 2002. "BP", 80 s.

2.Əliyeva K. Xalça naxışlarında yaşayan ulu tariximiz. "Azərbaycan xalçaları" Elmi-publisistik jurnalı, № 21, 2015.

3.Əliyeva K. Xınalıq sənət beşiyidir. "Azərbaycan xalçaları" jurnalı. "Azər- ilmə". Cild 4. №11. 2014. 12-41s.

4.Xəlilov A. Qarabağ abidələri (Azərbaycan, rus, ingilis dillərində). Bakı, "Günəş-B" MMC, 190 s.

5.Kərimov L. Azərbaycan Xalçaları. I cild. Bakı-Leninqrad. 238 s.

6.Qarabağ xalçaları. Kataloq. Azərbaycan Milli Elmlər Akademiyası, Milli Azərbaycan Tarixi Muzeyi. Bakı, "Ziya". 2013. 100 s.

7.Абдуллаева Н.А. Ковровое Искусство Азербайджана. Издательство «Элм». Баку-1971, 57 стр.

8.http://regionplus.az/az/articles/view/4712

9.https://butali.az/az/22-hyat-agaci-kulonu

**Мунаввар Азизали кызы Гаджиева**

**НОВЫЕ КОМПОЗИЦИИ, РАЗРАБОТАННЫЕ НАРОДНЫМИ МАСТЕРАМИ НА СОВРЕМЕННЫХ КОВРАХ**

**Резюме:** Известно, что начиная с 20 века искусство ковроткачества в Азербайджане стало развиваться в двух направлениях. Первое направление, включает ковры, созданные народными мастерами. Второе направление, включает ковровые изделия, созданные профессиональными художниками. Вчастности, дается разъяснение значениям элементов «розы» и «древо жизни», принадлежащие Карабахским и Губинским ковроткачества. Созданные на ос-нове простого воображения, эти элементы были проанализированы в даннойстатье. В работе приводятся исследования семантические значения симво-ла «птицы», как основного элемента на ковре «Розы» и элементы «дерево», «овен» и «павлина», являющиеся символами стабильности силы на ковре.

**Ключевые слова:** орнамент, композиция, ковер, ткачи, образ, искусство, форма, ритм, птица, фантазия.

**Munavvar Azizali gizi Hajiyeva**

**NEW COMPOSITIONS DEVELOPED BY FOLK MASTERS ON THE MODERN CARPET**

**Summary:** From the middle of the XX century onwards, the carpet of artin Azerbaijan become progressed in two directions. The first direction concernscarpets developed by folk masters. Another branch of carpet art is continued anddeveloped by professional artists. This article talks about two examples of carpetsdeveloped by folk masters. Thus, the meaning of the elements used in the "Goldenrose" and "Tree of life" carpets belonging to the Karabakh and Guba market- making schools have been explained. Compositions based on simple imaginationhas analyzed. The semantic meaning of the images "bird" as the main element in the carpet "Golden Rose", and images of the "tree", "Ram", and "peacock" in thecarpet "Tree of Life" and their position on the carpet are investigated.

**Key words:** ornament, composition, carpet, weaver, image, art, form, rhythm,bird, imagination.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**